*Leonid SOKOLOV*

# URALDAN MƏKTUB



***Uraldan həmyerlimiz Knyaz Qoçaqla başqırd yazıçısı Rafiz Nəsənovun mənə göndərdikləri məktubdan, həm də tanınmış yazıçı Leonid Sokolovun yeni kitabından məlum oldu ki, Başqırdıstanın Əməkdar mədəniyyət işçisi L.Sokolov Başqırdıstan Yazıçılar İttifaqı nəzdindəki Rusdilli Yazıçılar bolməsinin rəhbəridir. Son illər dəfələrlə "Literaturnaya qazeta"nın "Qızıl dana", "Oniki stul klubu" adı altında keçirdiyi ədəbi müsabiqələrin laureatı olan L.Sokolov həm də 2016, 2019, 2021-ci illərdə "Rus ədəbi dünyasının qızıl qələmi" Beynəlxalq mükafatına layiq görülüb. Satirik-yumoristik hekayələri, əsasən, "Literaturnaya qazeta", "Komsomolskaya pravda", "Arqumentlər və faktlar" qəzetlərində, həmçinin "Krokodil", "Vokruq smexa" ("Gülüş dairəsi"), "Çayan", "Xenek" ("Yaba") və digər dərgilərdə nəşr olunur. Bir sıra əsərləri Almaniyada, Bolqarıstanda, Kanadada, Avstraliyada və Tailandda çap olunub. Sizə L.Sokolovun Azərbaycan dilinə çevirdiyimiz hekayələrini təqdim edirəm.***

***Məmməd ORUC***